AzTU dos. İ.B.MƏHƏRRƏMOV,
dos. R.Ə.RZAYEV,
b/m. R.Ş.QULIYEV

# AZƏRBAYCANDA DÖVLƏTÇİLİK ƏNƏLƏRİNİN BƏRPASI VƏ YENİ MÜSTƏQİL FEODAL DÖVLƏTLƏRİNİN YARANMASI (IX-XII ƏSRLƏR) MÖVZUSUNDA MÜHAZİRƏNİN APARILMASINA DAİR METODİK TÖVSİYYƏLƏR

Azərbaycanın bütün tarixi mərhələlərdə ən azı ən qədim millətlərdə olduğu qədər inkişaf etmiş dövlətçiliyi olmuşdur. Əgər söhbət bütün tarixi mərhələrdən gedərsə, onda bizim dövlətçiliyimiz bir çox işğalçı millətlərdən fərqli olaraq ənənəvi olmuşdur. Məsəlçün tarixən bu ərazini işğal etmiş olan ərəblərdən, monqollardan, Temurilərdən və başqalarından. Azərbaycanın qədim və orta əsr feodal dövlətçiliyi Avropanın inkişaf etmiş dövlətlərinin orta əsr dövlətçiliyindən 30-50 il əvvəl baş vermişdir və qonşu İran dövləti ilə eyni zamanda yaranmış, ən azı İran dövlətçiliyinin səviyyəsinə bərabər bir səviyyəyə yüksəlmişdir. Yuxarıda qeyd etdiyimiz kimi belə müstəqil dövlətçilik ənənəmiz bizi bu günkü sivil, hüquqi demokratik və dünyəvi dövlət səviyyəsinə qaldırmışdır. İndi bizim Dünyəvi dövlətlər sırasında öz yerimiz vardır.

Azərbaycanın müxtəlif epoxalarında mövcud olan Azərbaycan dövlətlərinin tarixi bütövlükdə Azərbaycanın dövlətçilik tarixi, vətənimizin, millətimizin, torpağımızın şərəf tarixidir.

Hər bir millət ilk öncə özünün dövlətçilik tarixi ilə fəxr edir və hər millətin dövlətçiliyində onun milliliyi əks olunur. Bu baxımdan IX-XII əsr Azərbaycan dövlətləri mövzusu Azərbaycan tarixində çox əhəmiyyətli yerlərdən birini tutur və onun tədrisini metoloji baxımdan Vətən tarixinin tədrisinin bu günkü tələblərinə cavab verə biləcək səviyyədə qurmaqla tələbələrdə patriotik hisslərin yüksəlməsinə nail olmaq lazımdır.

Azərbaycanın dövlətçiliyi tarixində çox mühüm rol oynamış olan Şirvanşah Məzyədilər, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Atabəylər kimi dövlətlərin mövcud olması və fəaliyyəti tarixi metodiki baxımdan bu mövzuya mühazirəçidən lazımınca ciddi yanaşma tələb edir. Azərbaycan tarixinin bu mərhələsi yeni feodal dövlətlərinin mövcudluğu ilə əlamətdar olduğu kimi, feodal pərakəndəliyi ilə də səciyyəvidir.

Mövzu qeyd olunan müsbət və mənfi hallari doğuran tarixi kökləri araşdırmaq, öyrənmək və tədris prosesində qabaqcıl metodika ilə öyrətmək baxımından çox əhəmiyyətlidir.

Məlum olduğu kimi burada söhbət Azərbaycanda dövlətçilikdən gedir. Hər bir xalqın, millətin dövlətçiliyi dövlət müstəqilliyi onun milli ləyaqətidir, onun ən böyük fəzilətidir.

Deyildiyi kimi, İX-XII əsrlərdə Azərbaycanda müstəqil feodal dövlətləri yarandı. Eyni zamanda həmin dövrdə Azərbaycanda feodal pərakəndəliyidə var idi.

Mövzu göstərilən müsbət və mənfi halları doğuran cəhətlərin tarixi köklərini araşdırmaq və öyrənmək baxımından çox əhəmiyyətlidir.

Bu mövzunu şərh edərkən mühazirəçidən həsaslığı diqqətlilik və pedaqoji ustalıq tələb olunur. Mühazirə metodoloji cəhətdən çox düzgün qurulmalıdır. Mühazirənin aşağıdaki suallar əsasında oxunması məqsədə uyğundur.

1. IX əsrdə Azərbaycanda müstəqil feodal dövlətlərinin yaranması.
2. Böyük Səlcuq imperiyası və Azərbaycan.
3. Azərbaycan Atabəylər dövləti.

4. Azərbaycanın sosial-iqtisadi həyatı və mədəniyyəti.

IX əsrdən etibarən Azərbaycanda feodalların torpaq üzərində mülkiyyəti möhkəmlənməyə başlayır. Ayrı-ayrı feodallar müstəqilliyə can atırdılar. Xilafətin zəifləməsindən istifadə edən feodallar dövlət vergilərini vermir, mərkəzi hakimiyyətə tabeçilikdən imtina edirdilər. Belə bir vəziyyətin nəticəsi olaraq Azərbaycan ərazisində bir sıra feodal dövlətləri yarandı.

Mövzunu tədris edərkən azərbaycanın feodal dövlətçiliyi tarixində mühüm rol oynamış olan Şirvanşah Məzyədilər, Sacilər, Salarilər, Rəvvadilər və Atabəylər dövlətinə bir qədər çox yer verilməsi məqsədə uyğundur. Öz zəngin tarixi ilə seçilən Şirvanşahlar dövlətinin öyrənilməsinə geniş yer verilməsə daha məqsəd yonümlüdür. Bu dövlətin hüdudları Şərqdə Xəzər dənizi, Qərbdə Gürcüstan, Şimalda Qafqaz dağları və Cənubda Kür çayını əhatə edirdi. Qeyd etmək lazımdır ki, Şirvan yerli hökmdarlar tərəfindən idarə edilirdi. Mövzunu tədris edərkən, Şirvanın və başqa dövlətlərin yerli feodallar tərəfindən idarə olunması, mərkəzi hakimiyyətə tabeçiliyin zəif olması və hətta bəzən heç tabe olmamaları kimi amillərə xüsusi diqqət verilməlidir.

Sonralar yerli hökmdarların özlərinə Şirvanşahlar ləqəbi götürməsini qeyd etmək yerinə düşərdi.

Göstərmək lazımdır ki, Şirvanşahlar dövləti çox böyük bir tarixi mərhələni əhatə edir. Onun tarixi mövcudluğu VI əsrdən 1538-ci ilə qədər davam etmişdir.

İlk Şirvanşah dövrü VI əsrdən başlayaraq 861-ci ilə qədər davam edir. Ərəb üsul-idarəsinin süqutundan sonra Şirvanda Yezid ibn Məzyəd ibn Şeybani istiqlaliyyət əldə etdi. Vəfatından sonra hakimiyyət onun oğul və nəvələrinin əlinə keçir. 861-ci ildə Xilafət daxilində olan çəkişmələrdən istifadə edən Heysəm ibn Xalid özünü müstəqil elan etdi. O, Məzyədilər (861-1027) sülaləsinin əsasını qoydu. Şirvanşahlar dövlətinin ərazisi kifayət qədər genişləndi.

Məhəmməd ibn Heysəm Şirvanşahların nüfuzunu xeyli möhkəmləndirdi.

Mövzu öyrənilərkən Şirvanşahların və digər feodal dövlətlərinin təkcə Azərbaycan ərazisi daxilində yox, hətta xarici işğalçılara qarşı da mübarizə apararaq müstəqilliyə can atmalarını, əksər hallarda məqsədə nail olmalarını göstərmək çox zəruri olardı.

Qeyd etmək lazımdır ki, Məzyədilər sülaləsi dövründə Şirvanşahlar dövləti özünün çiçəklənməsi kimi tarixi bir mərhələsini yaşamışdır. Bu sülalənin aşağıdakı nümayəndələrinin adlarını yada salmaq və ya xatırlamaq yerinə düşərdi.

I Məhəmməd (881-912), II Heysəm (912-913), Əli ibn Heysəm (913-917), II Yezid Əbu Tahir (917-948), II Məhəmməd (948-956), Əhməd (956-981), III Məhəmməd (981-991), III Yezid (991-1027).

Qeyd etmək lazımdır ki, X əsrdə bir çox dövlətlər, o cümlədən Dərbənd Şirvanşahlar dövlətinə birləşdirildi. Paytaxtı Şamaxı olan bu dövlətin tabeliyinə bəzi hallarda Qəbələ torpaqları da keçirdi.

XI əsrin əvvəllərində (1027-1382) Kəsranilər sülaləsinin Şirvanşahlarda hakimiyyətə gəlməsini, Səlcuq dövlətinin dağılması və ümumiyyətlə, Azərbaycan feodal dövlətlərinin möhkəmlənməsi üçün münbit mühitin yaranması, Şirvan dövlətinin Azərbaycanın ən böyük və zəngin dövlətlərindən birinə çevrilməsi, dövlətin dəniz donanmasının yaranması, xüsusilə III Mənüçöhrün dövründə Şirvanşahlar dövlətinin daha da güclənməsi kimi məsələlər tədrisin diqqət mərkəzində yerləşdirilməlidir.

Eyni zamanda burada xatırlatmaq yerinə düşərdi ki, Şirvanşahlar dövlətinin tarixinin məşhur tədqiqatçısı Sara xanım Aşurbəyli bu dövləti idarə etmiş sülalə haqqın-

da yeni, maraqlı fikirlər irəli sürmüşdür. Onun fikrincə, 861-ci ildən 1538-ci ilədək Şirvanşahlar dövlətini eyni sülalə-Məzyədilər idarə etmişlər.

Səlcuqların dövründə öz müstəqilliklərini itirmiş Şirvanşahlar XII əsrin əvvəllərində yenidən istiqlaliyyət əldə etdilər. IX əsrin son rübündə yaranmış və paytaxtı Ərdəbil şəhəri olan Sacilər dövləti 942-ci ildən 981-ci ilədək fəaliyyət göstərən, yenə də paytaxtı Ərdəbil şəhəri olan Salarilər dövləti haqqında məlumat vermək və auditoriyanın nəzərini göstərilən dövlətlərin yaranmasına, fəaliyyətinə onların Azərbaycanın tarixində oynadıqları rola cəlb etmək yerinə düşərdi.

981-ci ildə Əbulheyca Rəvvadi tərəfindən əsası qoyulmuş (981-1054) mərkəzi Təbriz şəhəri olan Rəvvadilər dövlətinin, mərkəzi Gəncə şəhəri olan (971-1088) Azərbaycanın Kür və Araz çayları arasında yerləşən Şəddadilər dövlətinin də Azərbaycan tarixində yerini və əhəmiyyətini göstərmək lazımdır.

Yuxarıda göstərilənlər demək olar ki, birinci sualı əhatə edir.

Birinci sualı öyrənmək üçün aşağıdakı ədəbiyyatlardan istifadə etmək daha faydalı olardı.

1. M.X.Şərifli. IX əsrin II yarısı–XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı, 1978.

2.Azərbaycan tarixi, 7 cilddə, II cild Bakı, 1998.

3.S.Aşurbəyli. Şirvanşahlar dövləti (VI-XVI əsrlər) Bakı, 1997.

4.Azərbaycan tarixi, II cild, Bakı, 1994.

5.Azərbaycan tarixi. Z.Bünyadovun və Y.B.Yusifovun redaktəsilə. Bakı, 1994.

6.Azərbaycan tarixi. (Süleyman Əlyarlının redaktorluğu ilə), Bakı, 1996.

7.Mahmud İsmayılov. Azərbaycan tarixi. Bakı, 1997.

8.İsmayıl Məmmədov. Azərbaycan tarixi (Ali məktəblər üçündərslik). Bakı,. 2005.

9.Исмаил Мамедов. История Азербайджана (с древнейших времен до наших дней). Учебник для Вузов. Баку.2009.

II sual Böyük Səlcuq imperiyası və Azərbaycan adlanır. Bu sualdan danışarkən Səlcuqların hansı mənşəyə mənsub olmalarından, dini mənşələrinə, məskunlaşmalarına, işğal dairəsinə və xüsusilə də Azərbaycan ərazisində məskunlaşmalarına daha çox yer vermək lazımdır.

Səlcuqlar Azərbaycana IX əsrin birinci yarısında yürüş etdilər. Onlar Oğuz-Türk tayfalarıdırlar. X əsrin II yarısında Orta Asiya çöllərində köçəri həyat keçirirdilər. X əsrin 80-ci illərində Buxara və Səmərqənddə məskunlaşmış, islam dinini qəbul etmişdirlər. Qəznəvi Sultan I Mahmud 1009-cu ildə Səlcuq tayfalarını Xorasan əyalətində yerləşdirdi. Onların çox hissəsi öz yerlərindən uzaqlaşaraq İraq-Əcəminə çəkildilər. Səlcuqların bir hissəsi Azərbaycanda qaldı. 1025-ci ildə 4 min Səlcuq Qəznəvi sultanı Mahmuddan Xorasanda qalmaq üçün icazə aldı. Onlar Xorasanda iğtişaş törətdilər. Odur ki, sultan Mahmud onların bir hissəsini qırdı, qalanın 1028-ci ildə Xorasandan qovdu. 1030-cu ildə sultan Mahmudun ölümündən sonra səlcuqların fəaliyyəti daha da güclənir, onların işğal dairəsi genişlənir. Səlcuqların çoxu yenidən geri Xorasana qayıdır və Böyük Səlcuqilər İmperiyası yaranır. Bu İmperiyanın tarixi 1038-1157-ci illəri əhatə edir. Səlcuqlar 1040-cı ildən etibarən bir-birinin ardınca Iranı, İrakı və Zaqafqaziyanı ələ keçirdilər.

İlk Səlcuq dəstələri Azərbaycana XI əsrin əvvəllərində gəlmişdir. Onlar 1045-ci ildə Həmədanı, 1050-ci ildə İsfahanı tutdular, 1054-cü ildə isə Azərbaycanı zəbt etdilər. Təbriz hakimi Rəvvadi Vəhsudan Toğrul bəyə müqavimət göstərə bilmədi və onun hakimiyyətini qəbul etdi. Toğrul bəy oradan Gəncəyə hücum etdi. Şəddadi Şavir onun hakimiyyətini qəbul etdi. Başqa vilayətlərin hakimləri də Toğrul bəyin hakimiyyətini

qəbul etdilər. Beləliklə, Səlcuqlar Azərbaycanı tutdular və Ermənistana hücumu genişləndirdilər.

Səlcuqlar Xorasan, Fars, İraq, Kürdistan və Azərbaycanı tutaraq Böyük Səlcuq İmperiyasını yaratdılar. Imperiyanın mərkəzi mərhələlərilə Mərv, Rey və İsfahan olmuşdur.

Bu sualı şərh edərkən Səlcuqilər İmperiyasının dağılma səbəbi kimi, onun hərbi feodal dövləti olmasına əhəmiyyət vermək lazımdır.

Ikinci məsələni öyrənmək üçün aşağıdakı, mənbələr məsləhət görülür;

1. N.Vəlixanlı. IX-XII əsrlər ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı, 1974.
2. M.Şərifli. IX əsrin ikinci yarısı XI əsrlərdə Azərbaycan feodaldövlətləri. Bakı,.1978.
3.XII-XIII əsrlərdə Suriya mənbələri Azərbaycan haqqında, Bakı, 1960.
4.R.Əliyev. Azərbaycan VII-XIV əsrlərdə, Bakı, 1980.
5.S.Aşurbəyli. Şirvanşahlar dövləti VI-XIV əsrlər Bakı, 1997.
6.Azərbaycan tarixi 7 cilddə, II cild, Bakı, 1998.
7.Azərbaycan tarixi, I cild. Bakı, 1994.
8.Azərbaycan tarixi. Z.Bünyadovun və Y.B.Yusifovun redaktəsilə. Bakı, 1994.
9.Azərbaycan tarixi. (Süleyman Əlyarlının redaktorluğu ilə), Bakı, 1996.
10.Mahmud İsmayılov. Azərbaycan tarixi. Bakı, 1997.
11.İsmayıl Məmmədov. Azərbaycan tarixi (Ali məktəblər üçündərslik). Bakı, 2005.
12. Исмаил Мамедов. История Азербайджана (с древнейших времен до наших дней). Учебник для Вузов. Баку,2009.

Üçüncü sual, Azərbaycanın dövlətçiliyi tarixində özünəməxsus və əhəmiyyətli rol oynamış olan Atabəylər dövlətidir. Bu məsələdən danışarkən Atabəylər dövlətinin yaranması tarixini, dövlətin yaranmasını zəruri edən real ictimai mühiti və bu mühiti doğuran obyektiv şərtlərin üzərində dayanmaq lazımdır. Dövlətin əsasını qoyan Atabəy Eldənizin tərcümeyi-halına səyahət etməklə onun kimliyini öyrənmək mütləq-zəruridir. Eldənizin yadelli işğala, talançılığa, asılılığa qarşı mübarizəsi, bu mübarizənin nəticələri və əhəmiyyəti bir qədər geniş öyrənilməlidir. Dövlətin əhatə etdiyi ərazinin dairəsini onun mərkəzlərini, qonşu Ermənі və Gürcü dövlətləri ilə hərbi, bəzən az da olsa iqtisadi münasibətlərini diqqət mərkəzinə çəkmək lazımdır. 1134-cü ildə II Toğrul ölür və onun yerinə qardaşı Məsud taxta çıxır. Məsud Toğrulun dul qalmış arvadı Möminə Xatunu Eldənizə ərə verir. O, Eldənizi kiçik yaşlı Arslan şaha qəyyum–Atabəy təyin edir. Azərbaycanın idarə edilməsini ona tapşırır. Kiçik yaşlarından yetim qalan Eldəniz Dərbənddə qul kimi satılmışdır. O, Bağdada gətirilmiş Səlcuq sultanlarının vəziri tərəfindən alınmışdır. Səlcuq qoşunlarının baş komandanı vəzifəsinə qədər yüksəlmişdir.

Müstəqilliyə can atan Eldəniz Atabəylər (Eldənizlər) dövlətinin (1136-1225) əsasını qoymuşdur. Səlcuq şahzadəbri arasında baş verən çəkişmələrdən çox məharətlə istifadə edən Atabəy Eldəniz Səlcuq Məsudun asılılığından azad olmuşdur. Dövlət Aran, Cənubi Azərbaycan, Naxçıvan, Iranın Qərb hissəsi də daxil olmaqla böyük bir ərazini əhatə edirdi. Dövlətin mərkəzi Təbriz, bəzi vaxtlarda isə Naxçıvan olmuşdur.

Atabəylər dövləti Eldənizin oğulları Məhəmməd Cahan Pəhləvan (1175-1186-cı illər) və Qızıl Arslanın (1186-1191-ci illər) dövründə daha da gücləndi.

Lakin belə bir güclü dövlət sonralar iradəcə zəif olan Əbu Bəkir (1191-1210-cu illər) və onun qardaşı Özbəkin (1210-1225-ci illər) dövrlərində zəifləyərək tarix səhnəsindən çıxmışdır. Tədqiqatçılar Azərbaycan Atabəylər dövlətinin və onu idarə edən sülalə-

nin tarixini təşəkkül (1136-1160), çiçəklənmə (1161-1191) və tənəzzül (1191-1225) dövrünə bölürlər.

Azərbaycan Atabəylər dövlətinin yüksəliş mərhələlərini iftixar hissi ilə tədris etməklə yanaşı, onun Əbu Bəkir–Özbək, yəni zəifləyərək sıradan çıxma mərhələsinə də diqqət verilməlidir.

Atabəylər dövlətinin tarixini öyrənmək üçün aşağıdakı mənbələrdən istifadə etmək tövsiyə olunur:

1.Z.Bünyadov. Azərbaycan Atabəylər dövləti. Bakı 1985.

2.M.Şərifli. IX əsrin ikinci yarısı XI əsrlərdə Azərbaycan feodal dövlətləri, Bakı, 1978.

3.R.Əliyev. Azərbaycan VII-XIV əsrlərdə. Bakı, 1980.

4.Azərbaycan tarixi I cild, Bakı, 1994.

5.Azərbaycan tarixi, 7 cilddə, II cild. Bakı, 1998.

6.Azərbaycan tarixi. Z.Bünyadovun və Y.B.Yusifovun redaktəsilə. Bakı, 1994.

7.Azərbaycan tarixi. (Süleyman Əlyarlının redaktorluğu ilə), Bakı, 1996.

8.Mahmud İsmayılov. Azərbaycan tarixi. Bakı, 1997.

9.İsmayıl Məmmədov. Azərbaycan tarixi (Ali məktəblər üçün dərslik). Bakı, 2005.

10.Исмаил Мамедов. История Азербайджана (с древнейших времен до наших дней). Учебник для Вузов. Баку,2009.

Dördüncü sual, Azərbaycanın sosial-iqtisadi həyatı və mədəniyyəti adlanır. Bu sual mövzuda və hətta Azərbaycan tarixində xüsusi əhəmiyyətə malik olan bir məsələdir. Bu sualı şərh edərkən aşağıdakılara diqqət yetirmək daha faydalı olardı.

1. Ərəb əsarəti dövründə Azərbaycanın iqtisadi və mədəni inkişafı; 2. Ərəb əsarəti aradan qaldırıldıqdan sonra feodal parçalanmasının, feodal pərakəndiliyinin baş verməsi və bunun Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafına təsiri; 3. Səlcuqların Azərbaycana hücumu, Səlcuq əsarətinin Azərbaycanın mədəni və sosial-iqtisadi inkişafına dağıdıcı təsiri; 4. Səlcuqilər İmperiyasının süqutundan sonra Şirvanşahlar dövlətinin yüksəlməsi, Azərbaycanın Cənub torpaqlarının Atabəylər dövləti ətrafında birləşməsinin ölkənin təsərrüfat həyatının, mədəniyyətinin canlanmasına güclü tarixi təkan verməsi.

Azərbaycan Atabəylər dövləti və Şirvanşahlar dövlətinin dirçəlişi dövründə əkinçilik inkişaf edir, yeni suvarma kanalları çəkilir, kəhrizlər qazılırdı. Təbrizdə 800 kəhrizin olduğu qeyd edilir. Bu dövrdə Azərbaycanda təkcə dənli bitkilər deyil, texniki bitkilərdə əkilirdi. Ölkədə yetişdirilən müxtəlif meyvələr alim və səyyahların diqqətini cəlb etmişdir. Yaqut Həməvi yazır: «Mən heç yerdə onda (Azərbaycanda) olan qədər bağ, su və bulaq görməmişəm». Azərbaycanın ipəyi, pambığı, meyvə qurusu, boyası dünyanın bir çox ölkəbrinə ixrac edilirdi. Bu isə Azərbaycanda yeni ticarət mərkəzlərinin yaranmasına güclü təkan verirdi.

Bu dövrdə Azərbaycanda sənətkarlığın inkişafı da diqqətlə öyrənilmişdir.

Sənətkarlıq IX-XII əsrlərdə Azərbaycanın sosial-iqtisadi və mədəni həyatında mühüm rol oynayan başlıca amillərdən biridir. Ölkədə sənətkarlığın metal işləmə, toxuculuq, dulusçuluq kimi müxtəlif sahələri sürətlə inkişaf etmişdir. Sənətkarlıq mərkəzləri olan iri şəhərlər meydana gəlmişdir. Təbriz, Şamaxı, Bərdə, Gəncə, Naxçıvan, Beyləqan, Marağa, Ərbəbil, Şabran kimi ticarət və sənətkarlıq mərkəzləri olan şəhərlər öz görkəmini sürətlə dəyişirdi. Ərəb müəllifləri Bərdəni «Aranın anası» adlandırır, böyüklüyünə görə onu Bağdad şəhəri ilə müqayisə edirdilər. X əsrdən sonra Bərdə tənəzzül edir və üstünlük Gəncə şəhərinə keçir. Gəncə Azərbaycanda dövrünün demək olar ki, ən böyük şəhərinə çevrilir. 1139-cu ildə baş verən zəlzələ zamanı Gəncədə 230

min adamın həlak olduğu qeyd edilir. Təkcə bu fakt özü sübut edir ki, Gəncə doğurdan da o dövrün çox böyük şəhəri olmuşdur.

IX-XII əsrlərdə Azərbaycanda feodalizm inkişaf etdikcə sinfi mübarizə də kəskinləşir. Feodalların tətbiq etdiyi müxtəlif vergilər kəndlilərin həyatına mənfi təsir göstərir. XII əsrin 30-cu illərində dövlət adamlarının özbaşnalığına qarşı Gəncədə üsyan baş verir. Bu dövrdə Azərbaycanda ən geniş yayılmış sinfi mübarizə forması sufilik idi. Sufiliyin sol cinahı olan əxilik-qardaşlıq cərəyanı daha geniş yayılmışdı.

Bu kimi sosial, sinfi-siyasi məsələlərə bir qədər geniş yer vermək və müasir dövrlə əlaqələndirmək lazımdır.

Azərbaycan tarixində IX-XII əsrlər Azərbaycan mədəniyyəti çox əhəmiyyətli yer tutur. Bu dövrdə Azərbaycan mədəniyyəti şərq xalqların mədəniyyəti ilə qarşılıqlı surətdə inkişaf etmişdir. IX-XII əsr Azərbaycan mədəniyyətindən danışarkən təhsilin, elmin inkişafını, xüsusilə də təbabət, astronomiya, coğrafiya, fəlsəfə, filologiya kimi elmlərin inkişafını öyrənmənin diqqət mərkəzinə çəkmək məsləhətdir.

Milli mədəniyyətimizdə xüsusi yer tutan Naxçıvan və Şirvan memarlıq məktəbinə xüsusi əhəmiyyət vermək heç də pis olmazdı.

IX-XII əsrlərdə Azərbaycan ədəbiyyatı bu dövr mədəniyyətimizin demək olar ki, ən parlaq hissəsidir. Şifahi xalq yaradıcılığı o dövr ədəbiyyatında geniş tərəqqi tapmışdır. XI əsrdə Azərbaycanda şifahi xalq yaradıcılığının ən qiymətli abidəsi «Kitabi-Dədə Qorqud» dastanıdır. «Kitabi-Dədə Qorqud» dastanın Azərbaycan tarixində roluna xüsusi diqqət vermək lazımdır. Bu dövrdə Qətran Təbrizi, Əbülula Gəncəvi, Məshəti Gəncəvi, Xəqani Şirvani, Fələki Şirvani, Mücirəddin Beyləqani, Nizami Gəncəvi kimi görkəmli şairlərimiz yaşayıb yaratmışlar.

XII əsrdə dünya ədəbiyyatı tarixində böyük hörmətə layiq tutulan şair Nizami Gəncəvi idi. Nizami «Xəmsə»sinə daxil olan «Sirlər xəzinəsi», «Xosrov və Şirin», «Leyli və Məcnun», «Yeddi gözəl», «İskəndərnamə» kimi dünya şöhrəti qazanmış poemaların müəllifidir. O, istismarçı cəmiyyətin eybəcərlikləri ilə barışmır, bəşəriyyətə ideal cəmiyyət arzulayaraq əməkçi insanı xoşbəxt görmək istəyirdi.

Yuxarıda qeyd olunan dövrlərdə təhsilin, elmin və ədəbiyyatın inkişafını diqqət mərkəzinə çəkməklə IX-XII əsrlərdə Azərbaycan xalqının mədəniyyətinin yüksək səviyyədə olduğuna xüsusi əhəmiyyət verməklə öyrənmək və əxz etmək lazımdır.

Bu məsələləri öyrənərkən aşağıdakı ədəbiyyatlardan istifadə etmək tövsiyyə olunur.

1.Q.Əhmədov. Orta əsr Beyləqan şəhəri. Bakı, 1979.
2.M.İsmayılov. Xaqani. Bakı, 1983.
3.S.Aşurbəyli. Şirvanşahlar dövləti (VI-XVI əsrlər). Bakı, 1997.
4.Ə. Dəmirçizadə. Azərbaycan ədəbi dilinin tarixi. Bakı, 1979.
5.Azərbaycan tarixi I cild, Bakı, 1994.
6.Azərbaycan tarixi 7 cilddə, II cild, Bakı, 1998.
7.Azərbaycan tarixi. Z.Bünyadovun və Y.B.Yusifovun redaktəsilə. Bakı, 1994.
8.Azərbaycan tarixi. (Süleyman Əlyarlının redaktorluğu ilə), Bakı, 1996.
9. Mahmud İsmayılov. Azərbaycan tarixi. Bakı, 1997.
10. İsmayıl Məmmədov. Azərbaycan tarixi (Ali məktəblər üçün dərslik). Bakı, 2005.
11. Исмаил Мамедов. История Азербайджана (с древнейших времен до наших дней). Учебник для Вузов. Баку,2009.

Tarix və onun problemləri, №1 2010

## МЕТОДИЧЕСКИЕ РЕКОМЕНДАЦИИ К ЛЕКЦИИ ПО ТЕМЕ «ВОССТАНОВЛЕНИЕ ТРАДИЦИЙ ГОСУДАРСТВЕННОСТИ И ОБРАЗОВАНИЕ НОВЫХ ФЕОДАЛЬНЫХ ГОСУДАРСТВ В АЗЕРБАЙДЖАНЕ (IX-XII ВВ.)»

Тема «Восстановление традиций государственности и образование новых феодальных государств в Азербайджане (IX-XII вв.)» занимает одно из важных мест в изучении и преподавании нашей истории.

В статье даются важные методические рекомендации преподавателям и в особенности молодым преподавателям для ведения лекции по этой теме, отмечается значение деятельности феодальных государств IX-XII веков, а также положительные и отрицательные особенности периода.

Также опираясь на обширные исторические факты, они выдвигают ценные методологические рекомендации о восстановлении традиций государственности в Азербайджане, деятельности независимых феодальных государств и их месте в истории.

## METHODIC RECOMMENDATIONS ON THE CONDUCTION OF DISCUSSIONS ON THE TOPIC "RESTORATION OF STATEHOOD TRADITIONS IN AZERBAIJAN AND CREATION OF NEW INDEPENDENT FEUDAL STATES (9-12$^{th}$ CENTURIES)"

The topic "Restoration of statehood traditions in Azerbaijan and creation of new independent feudal states (9-12$^{th}$ centuries)" takes one of the significant places in the study and teaching of our history.

In the article teachers and especially young teachers are given important methodical recommendations in the deliver of lectures about the feudal states of the 9-12$^{th}$ centuries, their significance, activity and the positive and negative natures of that time.

There were given sensible methodological advices substantiated with wide historical facts about the restoration of statehood traditions in Azerbaijan and creation of new independent feudal states, activity of states and their place in history.

***Rəyçilər: t.e.d. Ş.M.Qasımov, t.e.d.A.C,İsgəndərov.***

***AzTU-nun Tarix kafedrasının 08 dekabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №04).***